

# SƏKKİZ OĞUL İSTƏRƏM...

O məşum gündən – 1997-ci ilin 10 aprelindən bizləri 22 il ayırır. Həmin vaxt, daha dəqiq, aprelin 7-də Azərbaycan Müdafiə Nazirliyinin kəşfiyyat qrupu Füzuli rayonu istiqamətində düşmən arxasına getmişdi... Üç gün ərzində ermənilərin həndəvərində onların gözünə görünmədən yüksək peşəkarlıqla bütün lazımi məlumatlar toplanıldı, fotoşəkillər çəkildi, ərazinin xəritəsində zəruri qeydlər aparıldı... Geri qayıtmaq zamanı çatanda isə, heyhat, daşnak quldurları duyuq düşdülər!..

*Məlumdur ki, kəşfiyyatçı imkan daxilində açıq döyüşdən yayınmalı, əldə etdiyi informasiyanı qərargaha, rəhbərliyə çatdırmağa çalışmalıdır. İgid hərbçilərimiz – leytenant Elxan Ağayev, leytenant Vüqar Yarəhmədov, çavuşlar Dinar Mustafayev, Aqil Əhmədov, Aqşin Həsənov, Nizami Ələkbərov, Fariz Cavadov, Anar Rzayev də nizamnaməyə uyğun şəkildə davranaraq təqibdən uzaqlaşmağa cəhd göstərdilər. Lakin alınmadı, qeyri-bərabər döyüş başlandı. İşğalçıların xeyli sayda canlı qüvvəsini məhv eləsələr də, mühasirə halqası getdikcə daralır, üstlərinə cuman qarğa-quzğunun sayı çoxalırdı. Xain düşmənin məqsədi onları sağ ələ keçirmək idi... Hərbi sursat tükəndikcə şüurlarında bir acı həqiqət yavaş-yavaş dumandan sıyrılb çıxır, qərar qətiləşirdi: hətta həyatları bahasına da olsa, əsir düşməmək! Beləcə 7 oğul son dəfə baş-başa verib özlərini partlatmaqla şəhidlik məqamına yüksəldilər. Aqil isə bir qədər öncə aldığı yaradan huşunu itirərək çöllük ərazidə yıxılıb qalmışdı...*

Ötən müddət ərzində bu barədə çox danışılıb, yazılıb, xatirələr söylənib, nümunələr göstərilib, ibrətlər alınıb. Amma yenə də ölümün gözünə dik baxan kəşfiyyatçılarımızın yaratdığı qəhrəmanlıq dastanının oxunmamış, təzə səhifələri açılmaqdadır.

**“Milli Mədəniyyətin Təbliği İctimai Birliyi vətənpərvərləri Rəşid Behbudov adına Mahnı Teatrına topladı – burada həm qurumun rəhbəri, filologiya üzrə fəlsəfə doktoru Jalə Cəfərovanın şücaətli döyüşçülər haqqında “Əbədi yaşayanlar” kitabının təqdimatı, həm də düşməni belə heyrətdə qoymuş, mərhum hərbçilərimizin dəfninə və saygı duruşuna məcbur etmiş olaya həsr olunmuş bədii gecə keçirilirdi. Teatrın zalı şəhidlərin ailə üzvləri və döyüş yoldaşları, ictimaiyyət nümayəndələri, media mənsubları, tələbələr, hərbçilərlə dolmuşdu...**

Birliyin rəhbəri Jalə Cəfərova 8 kəşfiyyatçımızın mərdliyi, qorxmazlığı üzərində daim düşündüyünü, həmin mövzuya tədbirlərdə dəfələrlə toxunduğunu, bu rəşadət salnaməsini, şəhidlərin ölməz xatirəsini bir daha əbədiləşdirmək üçün kitab hazırlayacağı barədə onların doğmalarına, əzizlərinə, xüsusən analara söz verdiyini vurğuladı: ***“Əvvəllər Elxan, Vüqar, Dinar, Aqşin, Nizami, Fariz, Anar, Aqilin adlarını xatırlamaqdan ötrü tez-tez vərəqə baxırdım, indi dilimin əzbəridir. Onların yeddisinin nəşi hadisədən 6 ay sonra – 1997-ci il oktyabrın 16-da gətirilib Bakıdakı II Fəxri Xiyabanda torpağa tapşırıldı. Yeddi qardaş üçrəngli bayrağımızdan kəfən geyinib Vətən torpağına əmanət edildilər. Sonra isə Ulu öndər Heydər Əliyevin fərmanı ilə hər biri ölümündən sonra “Azərbaycan bayrağı” ordeni ilə təltifləndi”***.

J.Cəfərova “Əbədi yaşayanlar” kitabının yaranma ideyasından da söhbət açdı: “2017-ci ilin soyuq bir qış günü çoxdan tanıdığım Qarabağ qazisi Hüseyn Həsənov görüşmək istədiyini bildirdi. O, dostu – həmin səkkiz nəfərdən biri, möcüzəli şəkildə sağ qalmış Aqil Əhmədovla gəlmişdi. Aqil kəşfiyyatçı dəstənin göstərdiyi ağlasığmaz mübarizədən, düşmənlə qeyri-bərabər savaşdan, özünün yaralanaraq meşədə huşsuz vəziyyətdə qalmasından, 1 il 11 ay erməni əsirliyində çəkdiyi əzablardan danışdı. Amma daha çox dostlarından bəhs etdi, nə qədər toparlansa da bir neçə dəfə göz yaşlarını saxlaya bilmədi. “Sağ qaldığıma görə özümü hələ də qınayıram, şəhid kəşfiyyatçılar isə gərək unudulmasınlar. Onların igidliyini gələcək nəsillər də bilsin deyə kaş barələrində kitab yazılaydı!..” söylədi. Belə bir arzunu eşitcək məsuliyyətli işi üzərimə götürməyə qərar verdim. Şəhidlərimizin ruhu qarşısında baş əyir, igid oğullar dünyaya gətirən anaların əllərindən öpürəm!”



Sonra Aqil Əhmədovun özü, digər 7 nəfərin isə ailə üzvlərinin kövrək xatirələrinin yer aldığı süjet nümayiş olundu. C.Naxçıvanski adına Hərbi Liseyin kursantları bədii qiraət və nitq mədəniyyəti müəllimi Naibə Şəmsiyevanın ssenarisi əsasında hazırlanmış şəhid kəşfiyyatçılarla xəyali söhbət motivli kompozisiya təqdim etdilər.

Kəşfiyyat taborunun sabiq komandiri, polkovnik **Xətai Baxışov**, “Əbədi yaşayanlar” kitabının redaktoru **Rövşən Əhmədli**, dosent **Limunət Əmrahlı**, şairə **Gülsədə Aman**, hüquqşünas **Səməd Vəkilov**, jurnalist Qurban Cəbrayıl və başqaları çıxış edərək müharibənin hələ bitmədiyi, torpaqların işğaldan qurtulmadığı şəraitdə belə layihələrin, tədbirlərin daim gənclərin ideoloji tərbiyəsinə müsbət təsirini, vətənpərvərlik ruhunu yüksəltdiyini vurğuladılar.

**“Hərbi Lisey kollektivinin iştirakı ilə hazırlanmış daha bir kompazisiya – kursantların mərhum hərbçilər Elxan, Vüqar, Dinar, Aqşin, Nizami, Fariz və Anarın adını çəkməklə and içərək hərbi hissənin döyüş bayrağını bir-birinə, nəhayətdə isə Aqilə ötürmələri təqdim olundu.**

Sonda şəhid kəşfiyyatçıların ailə üzvləri və Aqil Əhmədov səhnəyə dəvət olundular. Elza ana, Ziyafət ana, Xanım ana, Firəngiz ana övladlarının xatirəsinin əbədiləşdirilməsi istiqamətində görülən işləri yüksək dəyərləndirdilər və dövlətə, Vətənə, bu işdə zəhməti olan hər kəsə minnətdarlıq etdilər.

Kəşfiyyat qrupu komandirinin müavini Vüqar Yarəhmədovun vəfatından sonra dünyaya gələn oğlu Vüqarın çıxışı isə qürurverici, eyni zamanda da kövrək notlarla yadda qaldı: “Ağlım kəsəndən atamın xatirələri ilə böyümüşəm – onun uşaqlıq dövrü, təhsil illəri, xarakteri... Bütün bunlar atamı təsəvvür etmək üçün köməyimə gəlib. Əlbəttə, təəssüflənmişəm ki, niyə atam yanımda deyil. İlk dəfə həmin ağrını bağçada hiss etmişəm. Evə gedən uşaqların arxasınca gah anaları, gah da ataları gələrdi. O zaman anladım ki, atam yoxdur. Onun adını daşımağımla fəxr edirəm, ömrümün sonuna qədər də belə olacaq. Bilirəm ki, bu, böyük məsuliyyətdir. Hər addımda ruhunu şad eləməyə çalışıram, fərqindəyəm ki, hərəkətlərim tək mənə aid deyil, amma nə qədər uğur qazansam da onun kimi ola bilmərəm. Mənim atam Milli Qəhrəmandır. Mən də qəhrəman döyüşçünün oğlu olduğum üçün adına layiq yaşamalıyam!”

Tədbir iştirakçılarına “Əbədi yaşayanlar” kitabı hədiyyə edildi və birgə xatirə şəkilləri çəkdirildi.

Bu həm də çoxdan gözlənilən, həmişə arzulanan görüş idi, neçə illərin həsrətlilərinin vüsal dəqiqələri... Keçmiş cəbhə yoldaşları – əsgərlər, zabitlər, komandirlər bir-birini bağrına basdılar, savaşın, dərdin, hicranın doğmalaşdırdığı ailələr xatirələrini bölüşdülər, şəhid anaları, bacıları “sənə baxanda öz oğlumuzu, qardaşımızı görürük” deyə Aqil Əhmədovun boynuna sarıldılar... Lakin hamının ürəyindən bir qubar, gözündən bir nisgil boy verdi: düşmən işğalındakı Vətən həsrəti... Onunçün də şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı arzulayıb vidalaşdılar – Lələtəpə, Cocuq Mərcanlı zəfərindən güc alıb yeni-yeni qələbələrlə Şuşada, Laçında, Xankəndidə görüşməkdən ötrü!..



**Qurban Məmmədov**